## *GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN RƏSUL RZA HAQQINDA SÖYLƏDİKLƏRİ*

Biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya qurbanları olması haqqında on illərdir ki, böyük ürək ağrısı ilə danışırıq... İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər, onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onlara da on illərlə ağlayacaqdıq. Biz Allaha şükür etməliyik ki, belə insanlar o ağır dövrlərdə o xatalardan qurtara bildilər. Əgər 30-ci illərdə o itkilərimizlə yanaşı Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsildən olan başqa görkəmli şairlərimiz olmasaydı və onlar yazıb-yaratmasaydılar, o əsərlər olmasaydı, indi bizim o dövr tariximizin ədəbiyyatı, mənəviyyatı, mədəniyyəti nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz, Rəsul Rzasız, Süleyman Rüstəmsiz təsəvvür edə bilmərəm.

***

Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza kimi böyük şairlərə,onların yaradıcılığında bugünkü günə uyğun olmayan hansısa nüanslar tapıb irad tutmaq, hesab edirəm ki, mənəviyyatsızlıqdır.Belə adamların özləri xalq, millət, ölkə üçün heç bir şey etməyiblər.Əgər bizim xalq dili ilə desək, onlar nə Səməd Vurğunun, nə Rəsul Rzanın, nə Süleyman Rüstəmin dırnağı qədər də ola bilməzlər.

**Heydər Əliyev,**
**Ümummilli Lider**

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, Dövlət Mükafatı laureatı Rəsul Rza milli poetik fikir salnaməsinə yeni səhifələr yazan novator sənətkar kimi böyük şöhrət qazanmış, ana dilinin zənginliklərindən uğurla faydalanaraq, yarım əsrə yaxın dövr ərzində daim yüksək bədii dəyəri ilə seçilən çox sayda əsərlər yaratmış, eyni zamanda ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edərək, genişmiqyaslı dolğun fəaliyyəti ilə tanınmışdır.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

İnsan yaşa dolduqca xatirələr aləmində yaşamağa başlayır, irəlidən çox geriyə baxır, keçən ömrün uzaq səhifələrini gözdən keçirir. Otuz üç il bərabər ömür sürdüyüm Rəsul Rza ilə keçən günlərimizi vərəqlərkən aydın bir həqiqət cəlb edir: bütün ağır və yüngül, sevincli və sevincsiz, kədərli və bayramlı keçən bir qəmimiz olmamışdır. Xalq həyatı ilə yaşamış, onunla nəfəs almış, ən ağır günlərdə xalqın dərdinə şərik olmuşuq, xalqın həyəcan və arzuları ilə yaşamışıq.

**Nigar Rəfibəyli,**
**Xalq şairəsi, Rəsul Rzanın həyat yoldaşı**

Rəsul Rzanın bir arzusu vardı. Həmişə bizə deyərdi ki, mən mütləq XXI əsri qarşılayacam, yeni minillikdə heş olmasa, bircə gün yaşayıb sonra öləcəm.

Yanılırmış. O, özü bizi XXI əsrdə qarşılayır. Çünki ən müxtəlif insanların dönə-dönə dediyi kimi, o, gələcəyin, həm də yalnız yaxın gələcəyin deyil, uzaq gələcəyin şairidir. Bu günlə yaşayan insanların, sabah üçün yaşayan insanları anlaması zor işdir.

**Anar,**
**Xalq yazıçısı, Rəsul Rzanın oğlu**

Mən Rəsulun şeirlərini dönə-dönə oxuyuram və hər dəfə onlar mənə yeni görünür. Ona görə ki, şair yenilik xatirinə yenilik eləmir, formal axtarışlar aparmır, hər sözü,hər ifadəni ölçüb biçir, onları həyatın öz rəngi, öz səsi, öz nəfəsi ilə cilalayır. Rəsul Rza yorulmadan və inadla daim

yeniləşən poetik məzmunun yeni formalarını axtarır.Rəsul Rza elə sənətkarlardandır ki, onların yaradıcılığının qocalmaq və ya kasıblaşmaq qorxusu yoxdur.

Mənim fikrimcə, Rəsul Rza Azərbaycan poeziyasının, Azərbaycan mədəniyyətinin fəxridir.

**Qara Qarayev,**
**akademik**

Xalq şairi Rəsul Rza XX əsr Azərbaycan ədəbiyyatının görkəmli yaradıcılarından biri olmaqla bərabər, dünya poeziyasında özünəməxsus yeri olan novator sənətkardır. Böyük şairin dərin ictimai məzmuna və orijinal bədii formaya malik olan bənzərsiz sənəti Azərbaycan ədəbiyyatının dünya şeir mədəniyyətinin inkişafındakı rolunu və yerini nümayiş etdirir.

Rəsul Rza sərbəst şeir məktəbi Azərbaycan sərbəst şeir məktəbinin manifestidir. Bu böyük və ölməz sənət yaşayır, böyük ədəbiyyatın inkişafı yollarına işıq salmaqda davam edir. Rəsul Rza şeiri bu gün də dünya sərbəst şeirinin önündə gedir.

**İsa Həbibbəyli,**
**akademik**

Rəsul Rzanı sadəcə ədəbiyyat tarixində iz qoymuş şəxsiyyət kimi təsəvvür etmək olmaz. O, XX yüzilliyin ikinci yarısında hadisələrə, dünyaya, insanlara münasibətin daha çağdaş olması yolunda zəmin təşkil etmiş insandır. Rəsul Rza gəncliyə üz tutmuş şəxsiyyət idi.

***

O, bəsit olanı, dayazı, bayağını sevmirdi. Onda istedadlı, ağıllı, işıq daşıyan adamlara xüsusi rəğbət vardı. Bu keyfiyyət həmişə onunla idi - Dövlət Təhlükəsizlik Komitəsində çalışanda da, Sovet Azərbaycanına rəhbərlik edəndə də, müstəqil dövlətimizi idarə edəndə də. Səbəbsiz deyil! Çünki özü də belə idi - hər cür bəsitlikdən uzaq, daxilən zəngin, istedadla dolu, parlaq!

**Rafael Hüseynov,**
**akademik**

Mən Rəsul Rzanı bir neçə dəfə uzaqdan görmüşəm, bir də televizorda, hamının görə biləcəyi məşhur kadrlarda… Ancaq düşünürəm ki, bu böyük şəxsiyyəti yaxşı tanıyıram. Çünki onun, demək olar ki, hər bir misrasında özünəməxsus mükəmməl xarakteri, əqidəsində dönməzliyi, eyni zamanda zərif, humanist duyğusallığı aydın görünür.

***

Böyük şairlərin həyatı kimi ölümü də poeziyadır, böyük mütəfəkkirlərin sevinci kimi kədəri də fəlsəfidir… Əlbəttə, duyan üçün, anlayan üçün…

**Nizami Cəfərov,**
**akademik**

Müasir şeir, müasir poeziya dedikdə ilk növbədə yadıma düşən şairlərdən biri Rəsul Rzadır. Mən Rəsul Rza şeirlərini oxuduqdan sonra özümdə qəribə rahatlıq duyuram. Bu şeirlər adamı düşündürür, mənəvi cəhətdən təmizləyir, yüksəldir. Onun yaradıcılığındakı intellektual səviyyə, günün problemlərinə verilən aydın cavablar, elmlərin inkişafı ilə şeri əlaqələndirmək bacarığı sübut edir ki, Rəsul Rza gündən günə inkişaf edən, planetimizin nəbzini tutmağı bacaran şairdir.

**Murtuza Nağıyev,**
**professor**

Mən Rəsul Rzanı axtaran, hey axtaran, bir çox sərvəti dürüst tapan, bəzən də tapa bilməyən, ancaq tapa bilmədikdə də həvəsdən düşməyən, "yoruldum" deməyən bir kəşfiyyatçı kimi, bir şair kimi təsəvvürümə gətirirəm…

**Süleyman Rəhimov,**
**Xalq yazıçısı**

O, əks elədiklərini sənətkar təxəyyülündən, sənət süzgəcindən keçirir, özünə lazım olan şəklə salandan sonra ona şer donu geydirir.

**Əli Vəliyev,**
**Xalq yazıçısı**

Rəsul Rza romantik bir qəlblə yazdığı "İntiqam" şeri ilə insanları, yerləri və göyləri, dağları və daşları belə intiqama – faşist cəlladlarının başına od yağdırmağa çağırdı.

***

Rəsul Rza böyük humanistdir, onun humanizminin əsasları, qaynaqları şairin xalqla dərin, qırılmaz əlaqəsindədir. Xalqın ağrısı Rəsulun ağrısıdır, xalqın sevinci Rəsulun sevincidir.

**Süleyman Rüstəm,**
**Xalq şairi**

Mən Rəsul Rzanın şerlərini oxuduqdan sonra özümdə qəribə rahatlıq duyuram. Bu şerlər adamı düşündürür, mənəvi cəhətdən təmizləyir, yüksəldir.

***

Əgər şerimizi göylərə ucalan yaşıl bir çinara bənzətsək, Rəsul Rza onun gözəl, canlı, sağlam budaqlarından biridir.

**Məmməd Rahim,**
**Xalq şairi**

Onun şerlərini bir daha qüvvətli göstərən, ümumiyyətlə, Rzanın sağlam siyasi görüşə malik olmasıdır.

**Mehdi Hüseyn,**
**Xalq yazıçısı**

Rəsul Rza Cənubi Azərbaycandakı böyük və unudulmaz xalq hərəkatına həsr etdiyi şerlərində xalqımızın əsrlik həsrətini, azadlıq uğrunda mübarizəsini tərənnüm etmişdir.

**Mirzə İbrahimov,**
**Xalq yazıçısı**

Rəsul Rza isə dünyaya dedikləri üzərində deyilməyə macal tapmadıqlarının da kölgələri dolaşır, çünki hər bir həqiqi sənətkarların bədii sözü dünənli, bugünlü, sabahlıdır, dərinində millidir, rəngində şəxsidir, ucalığında ümumbəşəridir və həqiqi poeziya həmişə hərəkətdədir.

**Ənvər Məmmədxanlı,**
**Xalq yazıçısı**

Onun poeziyasında qılınc kimi kəskin həqiqətlər vardır.

**İlyas Əfəndiyev,**
**Xalq yazıçısı**

Özünü xalqının zərrəsi sayan, həyatını xalq işinə həsr edən,xalqın kədəri ilə kədərlənib, sevinci ilə sevinən adamlar öz həyatını deyil, xalqın həyatını yaşayır. Belə adamlar fərdilikdən çıxıb, şəxsiyyət səviyyəsinə yüksəlir. Rəsul Rza xalqımızın yetişdirdiyi belə böyük şəxsiyyətlərdən biri idi. O, həm sənətində, həm də həyatda həmişə öz yolunu getdi, həmişə öz qəlbinin sözünü dedi. Biz onda heç bir yarımçıqlıq görmədik. Sözündə də bütöv idi, əməlində də. Nifrətində də, sevgisində də.

**Bəxtiyar Vahabzadə,**
**Xalq şairi**

Rəsul Rza həm parlaq şəxsiyyəti, həm də böyük poeziyası ilə Azərbaycan sovet mədəniyyəti tarixində tamamilə orijinal bir hadisədir. Əslində onun bənzərsiz yaradıcılığı, son dərəcə zəngin poeziyası da böyük şəxsiyyətinin davamıdır. Rəsul Rza poeziyası ölməzdir, azı min illik Azərbaycan şeri tarixində ən nadir hadisələrdən biridir. Rəsul Rza yaradıcılığının hər yeni mərhələsində özündə nəyisə qoruyub saxlayan, nəyisə rədd edən, dialektik sıçrayışlar yolu ilə irəliləyən sənətkar olmuşdur. Rəsul Rza yalnız başqaları ilə deyil, həm də özünü ötüb keçmək uğrunda çarpışmalarda kamilləşən yaradıcıdır.

**Xəlil Rza Ulutürk,**
**Xalq şairi**

Rəsul Rza xalq poeziyasının gözəl ənənələrini folklorşünas kimi ustalıqla, incəliklə təhlil edib, ən xırda düyünlərini belə açıb göstərməyi bacarır. O, xalq dilinin incəliyindən, kəsərindən, tutarından zövqlə istifadə edir: bəzən adamın yadına babaların, nənələrin işlətdiyi indi “arxaikləşib” atılan sözlərin danışıq və deyiliş formalarını salır. Hətta bizə məlum olan sözlərə şəkilçi və ya ön söz artırmaqla peyvənd ifadələr düzəldir. Bunlar dilin imkanına xələl deyil, təzəlik gətirir.

***

Rəsul Rza fikrində, əqidəsində möhkəm, səbatlı, bitgin xarakterli gəncləri alqışlayır, “ikiüzlü sac əppəyi” olanlara eyham və vurğularında sərt nəzərlə baxır. Ənənə və novatorluq barəsində onun hökmü qəti və inamlıdır. Bu inam həqiqətə doğru gedən, onu yanlış müddəalardan qoruyan sənətkar fikrindən, sənətkar dünyagörüşündən öz mənbəyini götürür.

**Məmməd Araz,**
**Xalq şairi**

Meydan cahil əlinə keçəndə ilk zərbələr gözə çarpan istedada, sifətini və rəngini dəyişməyən şəxslərə, yəni Rəsul Rzalara dəyir. Əlbəttə ki,dünya xali deyildi. Qara daş kimi ağır zamanda cahillərlə yanaşı, gözəl ziyalılar da,gözəl dönməz insanlar da vardı. Rəsul Rza dəfələrlə bezəndə, “yox!” deyib dünyadan getmək istəyəndə tanıdığı, sevdiyi gözəl insanları dünyada cahillər əlində tək qoymaq istəməyib, “lənət şeytana” deyib. Şeytan da qulağının dibində. Öz adını eşidən kimi yeni bir danos yazıb, yaxşı halda Rəsulun yeni şeirlərinə yeni bir hədyan yazıb. Əlbət ki, Rəsul Rza o zülmət yoldan tək keçməyib. Rəsul Rzanın evində dünyanın bütün tufanlarının söndürə bilməyəcəyi bir şam yanırdı. Rəsul Rza bilirdi ki, yer üzündə işıq tükənsə də, onun evində işıq yanır. O işıq Nigar Rəfibəyli idi. Nigar xanım sevginin, etibarın, sədaqətin, insanlığın, səmimiliyin, ziyalılığın simvolu idi. Ona görə Rəsul Rza adamların üzünə şax baxırdı. Heç kəsdən çəkinmədən sözünü mərd-mərdanə adamların üzünə deyirdi.

**Fikrət Qoca,**
**Xalq şairi**

Rəsul Rza şəxsən mənim üçün bir insan, bir şair kimi kim idi?

Mən 17 yaşım olanda atamı itirdim. Azərbaycanın başqa böyük şairini, Səməd Vurğunu itirdik. Mən ədəbiyyata gələndə artıq atam yox idi. Onun müdrik, yolgöstərən məsləhətlərindən tale məni məhrum etmişdi. Ancaq mən xoşbəxt adamam ki, Rəsul Rza mənim əlimdən tutdu.

Rəsul Rzanın 90 yaşı tamam olur. Minillik Azərbaycan poeziyasının ən Anlanmamış Şairinin! Xalqına, torpağına uzatdığı əli hələ də havada qalmış, bu yurdun ən Mütəfəkkir Şairinin 90 yaşı. Bu əl gödək deyil, o uzalı ələ çatmayan bizim əllərimizdir. Ancaq mən o günü görürəm, bu əllər qovuşacaq günü. Rəsul Rza marafonu sona yetəndə. Orda bu böyük Şairi və əsrimizin ən maraqlı, parlaq insanlarından birini onun özü arzuladığı və aydın gördüyü bir Azərbaycan gözləyir. Azad düşüncəli, maariflənmiş, savadlı, güclü, dözümlü və həzin bir Vətən...

**Vaqif Səmədoğlu,**
**Xalq şairi**

Rəsul Rza 50-ci, xüsusən də 60-cı illər Azərbaycan poeziyasının keyfiyyətcə dəyişməsində müstəsna xidməti olmuş şairdir. O, təkcə ənənəvi şeir təsəvvürünü deyil, həm də ümumiyyətlə, şair haqqında təsəvvürü dəyişib. Yadımdadır, o vaxt Rəsul Rza haqqında çox adamlar "ətiacıdır" deyirdilər. Bunu deyənlər həmin dırnaqarası sənət adamları idilər ki, belə demək mümkünsə, Rəsul Rzanı diri-diri yeməyə hazır idilər. Amma əslində Rəsul Rza Azərbaycan poeziyasının,xüsusən gənc poeziyanın ən böyük xeyirxahı idi. Rəsul Rzanın oxucuları bü gün də var, sabah daha çox olacaq. Mən əminəm ki, Rəsul Rza heç vaxt oxucusuz qalmayacaq.

**Ramiz Rövşən,**
**Xalq şairi**

Onun poeziyasının qəhrəmanı müasir dünyanın həyəcanları, qayğı və ehtiyacları ilə yaşayır. Məhz buna görə o, daim narahatdır, qəlbi daim çırpınır…

**Səttar Bəhlulzadə,**
**Əməkdar incəsənət xadimi**

Rəsul Rza həyata, həyati hadisələrə şerin gözü ilə baxmağı bacaran, ən adi hadisələri böyük şeriyyətlə təsvir etməyə qadir olan şairdir.

**Sabit Rəhman,**
**Əməkdar incəsənət xadimi**

...Rəsul Rza Azərbaycan poeziyasında yaranan yeni meyl və istiqaməti hamıdan qabaq duydu və əgər belə demək mümkünsə, bu prosesdə həqiqi bayraqdar rolunu üzərinə götürdü. Rəsul Rzanın 60-70-ci illər yaradıcılığında nəzərə çarpan fəlsəfi notlar, insan amilini təkcə sosioloji amil kimi deyil, fəlsəfi, psixoloji, geniş mənada isə bəşəri müstəvidə nəzərə çarpdırmaq meyli həmin illərin cavan şairləri üçün bir təcrübə oldu.

**Vaqif Yusifli,**
**Əməkdar mədəniyyət işçisi**

Rəsul Rza həm də uşaq ədəbiyyatının maraqlı isimlərindən biridir. Onun uşaq ədəbiyyatı nümunələrini bir neçə istiqamətdə araşdırmaya cəlb etmək olar: uşaqlar üçün yazdığı şeirlər, qəhrəmanı uşaq olan mətnlər və bir də şairin özünün uşaqlıq çağı, körpəlik, analı günləri ilə bağlı şeirləri.

Rəsul Rzanın uşaq şeirləri ilk növbədə, onların bədii quruluşuna, poetik strukturuna gətirilən yeniləşmə ilə səciyyələnir. Folklor ənənələrinin şairin şeirlərinin poetik strukturundakı iştirakı, folklorun estetik sistemindən duyum və düşüncə tərzi baxımından istifadə halları əsas yeniliklərdən biri kimi diqqəti cəlb edir. Rəsul Rzanın yazdığı dövrdə də, ondan əvvəl və sonra da aktual, zəruri mövzularda şeirlər hər zaman yazılıb: övlad sevgisi, vətən, yurd yerlərinin tərənnümü, təbiət təsviri, heyvanlara qayğı və s. Rəsul Rza bu mövzuların hər birini müasir bədii səviyyədə ifadəsinə nail oldu. Dərin hiss və səmimiyyət, təbii və anlaqlı dil, hər hansı mətləbin ifadəsində nail olduğu əyanilik və konkretlik kimi məziyyətlərlə.

**Elnarə Akimova,**
**Millət vəkili**

XX əsr Azərbaycan ədəbiyyatı tarixinin görkəmli ədəbi şəxsiyyətlərindən olan Xalq şairi Rəsul Rza milli, ictimai şüurun inkişafına, poetik düşüncənin yenilənməsinə çoxşaxəli, çoxistiqamətli yaradıcılığı ilə güclü təsir göstərib. Şair bədii kəşfləri, yenilikləri ilə çağdaş poeziyamıza yeni nəfəs gətirib, onu özünün poetik ziyası ilə rövnəqləndirib. Ömrünün mənəvi davamı da əsərlərinin ideya və məzmununun milli-bəşəri mahiyyət kəsb etdiyinin, yeni yaradıcı nəsillərin yetişməsində bir məktəb yaratdığına bariz nümunədir. Rəsul Rza elə bir nəhəng ədəbiyyat adamıdır ki, onun yaradıcılığı, ümumən irsi, yaxud da əsərləri ayrılıqda, yenicə nəşr etdirdiyi bir kitabı, bir şeiri də zamanında rezonans doğurub, ədəbi mühitdə böyük heyrət və maraqla qarşılanıb.

**Şəfəq Nasir,**
**filologiya üzrə fəlsəfə doktoru**

Rəsul Rza əsrlərdən qırıq-qırıq sızıb gələn ənənələri böyük sürətlə inkişaf etdirərək, sərbəst şeiri XX əsr Azərbaycan poeziyasında qanuniləşdirmək missiyasını böyük şərəflə həyata keçirmişdir. Məhz Rəsul Rzanın böyük yaradıcı dühasının simasında sərbəst şeir Azərbaycan ədəbiyyatının həmişəlik ədəbi sərvətinə çevrilmişdir. Xalq şairi Rəsul Rza Azərbaycan sərbəst şeirinin atasıdır. Rəsul Rzanın sərbəst şeirləri Azərbaycan ədəbiyyatına geniş fikir və düşüncə sərbəstliyi gətirmiş, lirikanın poetik formanın bəzi formal tələblərindən xilas olmasına imkan yaratmışdır. Sərbəst adlanmasına baxmayaraq, Rəsul Rzanın poeziyasında şeir texnologiyası üçün zəruri olan şərtlərə yaradıcı şəkildə əməl olunmuşdur.

**Pərvin Nurəliyeva,**
**filologiya üzrə fəlsəfə doktoru**

Rəsul Rza daha ziyada lirik, xitabətçi və inqilabi romantizmə malikdir. Onun şerlərində real hadisələrdən çox real həyacanlar, canlı xarakter və obrazlar təsvirindən çox canlı təşbeh və məcazlar, canlı, həyati hissiyyat və idrak məfhumları vardır.

**Əli Nazim,**
**tənqidçi**

Rəsul Rzanın şerləri bəzən son dərəcə incə, həssas, zərif, bəzən də amansız dərəcədə sərtdir. O, yalnız həyat hadisələrini deyil, rənglərin, səslərin, işığın, suyun, dalğaların ifadə etdiyi sevinci, kədəri duymağı və onları duyğular, düşüncələr, xəyallar və xatirələrlə bağlamağa çalışır.

**Əhməd Cəmil,**
**şair**

Rəsul Rza xalq və klassik ədəbiyyata böyük pərəstiş edən bənzərsiz şair, Azərbaycan poeziyasının novatorlarından biridir... Rəsul Rza Azərbaycan poeziyasına şəhərin danışıq dilini, bu dilin ahəngini gətirib... O, qafiyəni, ölçünü rədd etmir, ancaq nəzm aləmindəki qayda-qanunları da qəbul etmir...

Rəsul Rza elə şairlərdəndir ki, tək Azərbaycan deyil, bütün sovet poeziyası ənənəsinə novatorluq gətirib. Rəsul Rza filosofdur, "İki buruğun söhbəti" şeiri ilk baxışda olduqca sadə və adi görünür. Ancaq şeirdə həyat, nəsillər, gələcək haqqında, onların qarşılıqlı cavabdehliyi haqqında nə qədər gözəl deyilmişdir.

"Rəngələr" silsiləsiylə Rəsul Rza şeirimizdə yeni səhifə açdı, özü-özünü belə ötüb keçdi...

Klassik və çağdaş Azərbaycan ədəbiyyatı – xalqın əvəzsiz nəğməsidir, Rəsulun səsi bu nəğmənin ən yaxşı keyfiyyətlərini özündə cəmləşdirir.

**Nazim Hikmət,**
**yazıçı**